Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 185 (20.839)

3 oktyabr 2013-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

Qurtuluş tariximiz

1993-cü il oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi illərində yeni tariximiz yazıldı. O tarixdə intibahımız, inkişafımız və tərəqqimiz qırmızı xətlə silinməz izlər qoydu

Yollarımızdan başlayaraq evlərimizə qədər hər şey zaman-zaman dəyişdi. Köhnələr yenilərlə əvəzləndi. Gözümüzü yoran bozarmış nimdaş tikililər bir-bir öz yerini yeni, müasir binalara verdilər. Yollarımız, küçələrimiz bir ayrı mənzərə ilə könlümüzü oxşadı. Yaşıllıqlar təbiətimizin əsrarəngiz gözəlliyinə yeni bir yaraşıq verdi. Hər bir sahədə inkişaf, yenidənqurma insanların yaxşı yaşayışında təzahür etdi. İllər uzunu yaranmış problemlərin kökündən həll olunması üçün məqsədyönlü siyasət həyata keçirildi. Daxili və xarici siyasətdə ağlagəlməz uğurlar Azərbaycanın bir dövlət kimi dünyada tanınmasına səbəb oldu. Bütün bunlar o gün – 3 oktyabr 1993-cü ildə görkəmli dövlət xadimi Heydər Əliyevi Prezident seçməyimizlə reallaşdı. Uzaqgörən siyasətin şirin bəhrələrini bu gün dadırıq.

Ötən əsrin 80-ci illərində tez-tez televiziya vasitəsilə öyrənirdik ki, Heydər Əliyev bölgələrdə təsərrüfat fəallarının müşavirələrini keçirir. Həmin müşavirələrdən əvvəl onun bölgədəki rayonların taxıl zəmilərinə, pambıq tarlalarına, üzüm plantasiyalarına və digər təsərrüfat obyektlərinə baxış keçirdiyi bildirilirdi. Problemləri yerindəcə araşdırıb müvafiq nazirliklərə göstərişlər verirdi. Ümummilli lider səmimiyyəti, qayğıkeşliyi, zəhmətsevərliyi, sadəliyi ilə xalqın inamını, böyük məhəbbətini elə o vaxtdan qazanmışdı.

Sovet kəndinin inkişaf etməsi üçün Azərbaycanın müxtəlif yerlərində olan təsərrüfatları həvəslə gəzən, görülən işlərə obyektiv qiymət verən ulu öndər hələ onda bu xalqın ürəyində əbədiyyət heykəlini ucaltmışdı. Azərbaycanı torpağa səcdə və məhəbbət, el-obaya hörmət və sayğı, Vətənə sədaqət və sevgi, əmək adamlarına rəğbət və ehtiram ruhuna kökləmişdi. Onun uzaqgörənliyi və Allah vergisi olan fitri istedadı xalqımıza xoşbəxt günlər yaşatdı. Bugünkü müstəqilliyimizin təməli qoyuldu.

Gələcəyi görmək qüdrəti olan bu böyük simanı 1993-cü ildə özümüzə rəhbər seçməklə müstəqil dövlətimizdə ləyaqətə, humanizmə, asayişə, məsuliyyətə, inkişafa, əmin-amanlığa, sabitliyə səs verdik. Tarix sübut etdi ki, doğrudan da, elin gözü tərəzidir. Bu tərəzinin gözü əyiləndə biz müsibətlərlə üz-üzə qalmışıq. 1990-1993-cü illər bunu bir daha sübut etdi.

Düzgün seçim edən xalq bilirdi ki, böyük siyasətçi hər bir sahədə inkişafın ən azı 30-40 il sonrasının əsasını qoyur. Azərbaycanın çağdaş quruculuğunda dahi rəhbər Heydər Əliyevin təşəbbüsü ilə XX əsrin 70-80-ci illərində SSRİ-nin müxtəlif ali məktəblərində təhsil almış insanlar fəal iştirak etdilər. Bir vaxtlar milli kadrların hazırlanması müstəqilliyimizin qorunmasında və yaşamasında çox önəmli amil oldu.

Müstəqillik illərində istər təhsilin, istər səhiyyənin, istərsə də dilimizin, mədəniyyətimizin hərtərəfli inkişafında 70-ci illərdən təməli qoyulan islahatların və hazırlanan kadrların böyük rolu oldu.

Əmək fəaliyyəti dövründə əsl vətəndaş və rəhbər kimi milli mədəniyyətimizin inkişafına böyük önəm verən xalqımızın böyük oğlu Heydər Əliyev 1969-cu ildən başlayaraq xalqımızın unudulmaqda olan adət-ənənələrini, milli dəyərlərini və xüsusiyyətlərini, mentalitetini də qorumağa və yaşatmağa çalışdı. Bunun üçün xalqa güvəndi və həmişə tövsiyə etdi ki, insan dilini, Vətənini, kimliyini özü qorumalıdır.

Böyük alman filosofunun müdrik kəlamında deyilir: "Mədəniyyət idarə olunmazsa, arxasında külə dönmüş torpaqlar qalar". Xalqın təkidilə ikinci dəfə siyasi hakimiyyətə qayıdaraq Prezident kürsüsünə əyləşən ümummilli liderimiz müstəqillik illərində də Azərbaycanın milli mədəniyyətinin, dilinin, ənənələrinin dövlət səviyyəsində idarə olunub istiqamətlənməsinə böyük önəm vermiş, onun tərəqqi və təkamülünə qayğı göstərmişdir.

Dünya şöhrətli fransız filosoflarından biri yazırdı: "Xalqın arzularını ifadə etmədən onun rəhbəri olmaq mümkün deyil". Möhtərəm Heydər Əliyev hakimiyyətdə olduğu dövrlərdə həyatımızın bütün sahələrində xalqın arzularını reallaşdıraraq qazandığı böyük el məhəbbəti ilə əbədilik ümummilli lider adını qazandı. Xalqının ürəyində bir əbədiyyət heykəli ucaltdı ki, o heykəl keçmiş və gələcək tariximizin hər anında öz möhtəşəmliyini qoruyub saxlayacaq. Çünki O yalnız xalqın istək və arzularını reallaşdırmaqla dövlətimizin xoşbəxt gələcəyinə təminat yaratmağa çalışırdı.

İngilis tarixçisi Tomas yazırdı: "Dünyanın zənginliyi məhz bənzərsiz şəxsiyyətlərdədir... Nə qədər oğullar var ki, xalqlar onların şöhrəti arxasında dayanır".

Azərbaycanı dünya səviyyəsində tanıdan və bu xalqa yaşam haqqı verən dahi şəxsiyyət Heydər Əliyev də şöhrəti ilə xalqına dayaq oldu. Bu gün həmin şöhrəti genişləndirən və onun təntənəsini artıran da ümummilli liderimizin siyasi varisi cənab İlham Əliyevdir. Xalqımızın bir Prezident kimi cənab İlham Əliyevə böyük ehtiram və məhəbbətinin də kökündə ulu öndərin uzaqgörən siyasi xətti durur. Həmin xətt – xalqa inam, ehtiram, qayğı, diqqət, inkişaf, tərəqqi, yenidənqurma müstəvisindən keçir. Bu isə liderimizin dünya siyasətində yerini, mövqeyini, imicini formalaşdırmağa, ən yaxşı rəhbər kimi hörmətə və ehtirama layiq olmasına səbəb olur. Ulu öndər Heydər Əliyevin ailəsində əsl vətəndaş kimi böyüyən, xalqın dəstəyini qazanaraq ölkə başçısı kimi bu gün dünyanın tanınmış liderləri sırasında duran cənab İlham Əliyev də öz gücünü xalqdan alır. Böyük lider həyatımızın bütün sahələrinin hərtərəfli inkişafına nail olmaqla bir daha ulu öndərin yolunu davam etdirdiyini göstərir.

Ulu öndər Heydər Əliyevin 1993-cü il oktyabrın 3-də Azərbaycanda keçirilən prezident seçkilərində xalqın dəstəyini qazanması ilə bugünkü firavan günlərimizin əsası qoyuldu. Çünki həmin vaxt ulu öndər tərəfindən müəyyənləşdirilən quruculuq və fəaliyyət konsepsiyası bu gün də respublikamızda məqsədyönlü şəkildə həyata keçirilir. Xalqımız böyük uğurlara, xoşbəxt gələcəyə, firavan günlərə sahib olubsa, bu, millətimizin doğru-düzgün seçiminin, Heydər Əliyevin siyasi xəttini dəstəkləməsinin nəticəsidir.

Ümummilli liderin hələ 1990-cı illərdən başlayaraq muxtar respublikamıza yeni ab-hava gətirməsi sayəsində blokada şəraitində olmasına baxmayaraq, Naxçıvanın dirçəlişinə təkan verildi, gələcək sürətli inkişaf strategiyasının əsası qoyuldu. Sonrakı illərdə isə quruculuq dövründən inkişaf dövrünə qədəm qoyan muxtar respublikamızda yeniləşmə dövrü başlandı. Yollarımızdan tutmuş evlərimizə qədər nə varsa, tədricən dəyişdi. Gözümüzü yoran bozarmış köhnə tikililər bir-bir öz yerini yeni, müasir binalara verdi. Məktəblər tikildi, yenitəyinatlı sosial obyektlər yaradıldı. Səhiyyə, mədəniyyət müəssisələri istifadəyə verildi. Qaranlıq yollarımız nura qərq oldu, mavi qaz şölələnən evlərimizdə əksər problemlər öz həllini tapdı.

Estetik zövqümüzə gözəllik bəxş edən gülkarlıqlar, parklar, yaşıllıqlar salındı. Süfrələrimizi bəzəyən nemətlərin yerli istehsalına xüsusi dövlət qayğısı göstərildi. Kiçik sahibkarlığın inkişafına hərtərəfli şərait yaradıldı. Kənd təsərrüfatının hər bir sahəsi müasir dövrün tələblərinə uyğun qurularaq böyük uğurlar əldə olundu. İnsanların sosial müdafiəsi gücləndirildi.

Həyatımızda baş verən yeniliklər insanların düşüncə tərzini dəyişdi, tələbatını artırdı. Elə bu səbəbdən xidmət təşkilatları öz işlərini yenidən qurmağa başladılar. Yeniliklərin tətbiqi adi hal aldı. Dünyada baş verən elmi-texniki tərəqqi sayəsində ən ucqar dağ kəndlərində belə, əhali müasir texnikanın imkanlarından istifadə edə bilir. Bir vaxtlar bizim üçün möcüzə olanlardan – internetdən, mobil telefonlardan və başqa elmi-texniki yeniliklərdən bu gün hər bir ailənin üzvləri üçün istifadə imkanları yaradılıb. Kəndlə şəhər arasındakı fərqin azaldılması istiqamətində görülən işlər regionlarımızın simasını başdan-başa dəyişib. Beləcə, zaman-zaman həyatımızı dəyişən tərəqqi sayəsində özümüzü müasir dünyanın sivil insanı kimi gördük. Arzularımız çoxaldı, zahiri görkəmimiz dəyişdi, dünyaya baxışımızda, şüurumuzda yeniliklər yarandı. Çünki davamlı olaraq məqsədyönlü şəkildə ümummilli liderimizin siyasi xətti reallaşdırıldı. Azərbaycan yeni inkişaf konsepsiyası ilə müstəqillik yollarında addımladı. Bu konsepsiya muxtar respublikamızda Ali Məclisin Sədri hörmətli Vasif Talıbov tərəfindən ardıcıl olaraq həyata keçirildi.

Naxçıvan Muxtar Respublikası hazırda ulu öndərimizin adına və arzularına layiq şəkildə inkişaf etdirilir, yenidən qurulur. Son 18 ildə muxtar respublikanın keçdiyi inkişaf yolu ulu öndər Heydər Əliyevin ideyalarına sədaqətin təcəssümüdür. Naxçıvan Muxtar Respublikası Azərbaycanın iqtisadi rayonları arasında inkişaf dinamikasına görə xüsusilə seçilir. Muxtar respublikada inkişafdan kənarda qalan sahə yoxdur. Bütün infrastruktur yeniləşdirilib, xüsusi zövqlə, diqqət və qayğı ilə yenidən qurulub, müasir tələblər səviyyəsinə çatdırılıb. Bu gün muxtar respublikamızın paytaxtı Naxçıvan şəhəri, eləcə də digər şəhər, qəsəbə və kəndlərimiz, sözün əsl mənasında, yeniləşmə və inkişaf dövrünü yaşayır. Möcüzə təsiri bağışlayan hərtərəfli və dinamik inkişafın real təzahürləri hər addımda göz oxşayır, könül açır. Vətənə böyük məhəbbətlə görülən bu işləri hər kəs rəğbət və minnətdarlıqla qarşılayır.

Ümummilli liderimiz Heydər Əliyevin 1993-cü il oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti seçilməsi xalqımızı həqiqi müstəqilliyə, Azərbaycan dövlətini isə inkişaf və tərəqqiyə qovuşdurdu. Ötən 20 il bir daha təsdiq etdi ki, Azərbaycan dövlətçiliyinin və müstəqilliyinin yeganə təminatı ümummilli lider Heydər Əliyevin siyasi xəttinin davam etdirilməsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"1993-cü ilə qədər Azərbaycanda hakimiyyətsizlik, siyasi hərc-mərclik, vətəndaş qarşıdurması hökm sürürdüsə, həmin tarixdən sonrakı dövr ölkəmizdə dövlət müstəqilliyinin möhkəmlənməsi ilə xarakterizə edilir. 1993-cü ildən sonra Azərbaycanın inkişafı göz qabağındadır. Əgər o vaxt Azərbaycanda xaos hökm sürürdüsə, bu gün Azərbaycanda sabitlikdir. O vaxt Azərbaycanda hərc-mərclik var idisə, bu gün Azərbaycanda əmin-amanlıqdır. O vaxt Azərbaycanın iqtisadiyyatı tənəzzülə uğrayırdısa, bu gün Azərbaycan dünyada ən dinamik inkişaf edən ölkələrdən biridir. O vaxt Azərbaycanda total böhran hökm sürürdüsə, bu gün Azərbaycan qüdrətli ölkəyə çevrilmişdir".***

Qocasından cavanına kimi dövlət qayğısı ilə əhatə olunan insanlar bu gün də böyük inamla qurur, yaradır, məhsul istehsal edirlər. Onlar dövlət qayğısına əməli işlə cavab vermək üçün yaradılan şəraitdən istifadə etməyə çalışırlar. Bütün bunlar ümummilli liderin uzaqgörən siyasətinə səs verən millətin doğru seçim etdiyinin göstəricisidir. İndi də onun siyasi varisi olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu siyasətə sadiqliyinin nəticəsində çiçəklənən Vətənimizdə sosial-iqtisadi uğurların artması xalqa xoşbəxt günlər, firavan gələcək bəxş edir. Bu siyasətin illər sonra da davam etdirilməsi üçün 9 oktyabrda xalqımızın yenə də düzgün seçim edəcəyinə inanırıq. Çünki başı bəlalar çəkmiş azərbaycanlıların səhv etməyə haqqı yoxdur.

Gözəlliklər yurdunun daha bir gözəl guşəsi:

Culfa şəhəri

Söhbətə giriş

Culfa şəhəri. Qədim Naxçıvanın Şərqə açılan qapısı. Bəzən düşünürəm ki, şəhərlər də insanlar kimidir. Yaşlaşsalar da, qayğı gördükcə cavanlaşırlar. Elə Culfa şəhəri kimi. Sözümün bu yerində bir qədər geriyə qayıtmaq istəyirəm. O vaxta ki, bu şəhəri hərbçilər və dəmiryolçular şəhəri kimi tanıyırdılar. Qonaq-qaralı bir şəhər kimi. Buraya SSRİ-nin ən ucqar nöqtələrindən gəlib-gedənlər olurdu. Bu şəhərə, təəssüf ki, o vaxt şəhər deməyə adamın dili gəlmirdi. Baxmayaraq ki, ölkəmizin inzibati ərazi bölgüsündə Culfa da rayon mərkəzi idi. Onu da deyim ki, kənd orta məktəbində təhsil alarkən Culfa Rayon Uşaq Musiqi Məktəbində də oxuyurdum. Bu səbəbdən hər həftə 3-4 dəfə Culfaya getməli olurdum. O vaxtdan yadımda darısqal və tozlu-torpaqlı küçələri ilə qalıb bu şəhər. Qayğı görməyən, gözdənuzaq, könüldən iraq bir yurd yeri. Şəhərin mərkəzi ilə kənarları bir-birindən seçilmirdi. İndi də yolum tez-tez Culfaya düşür. O illəri xatırlayıram. Gözlərimə inana bilmirəm. Hər gəlişimdə bir yeniliyin şahidi oluram. O illərdən Culfada, demək olar ki, heç nə qalmayıb... Şəhər gül-çiçəyə bürünüb, yaşıllıqlar içərisində cilvələnir, onun yaraşıqlı binaları, abad, rahat küçələri göz oxşayır. İnsan qəlbinə xoş duyğular bəxş edən bu mənzərələri görəndə düşünürsən ki, yurda bağlılıq, onun sabahına cavabdehlik hissi olan yerdə hər şeyə nail olmaq mümkündür. Son illər Culfa şəhəri öz gözəl siması ilə, doğrudan da, vəsf olunmağa layiq bir ünvana çevrilib. Bunun kökündə duran amilləri axtarsaq, öncə ümummilli liderimiz Heydər Əliyevin yoluna sədaqəti, dahi rəhbərin uzun illər üçün müəyyənləşdirdiyi yenilikçi strategiyanı, ulu öndərin ölkəmizin gələcəyinə hesablanmış siyasətinin uğurlu davamını, culfalıların yurd yerinə bağlılıqlarını görərik. Bu bağlılığın ifadəsidir ki, Culfa şəhəri bu gün öz inkişafının yeni mərhələsindədir.

Şəhərlə yenidən tanışlıq və ya rayon mərkəzinin ən gözəl ünvanı: Heydər Əliyev prospekti

Şəhər inzibati ərazi dairəsi üzrə nümayəndə İbrahim Əliyevlə bu qədim yurd yerini gəzə-gəzə söhbət edirik. Məlumat üçün bildirək ki, 12 min sakinin yaşadığı Culfa şəhərinin ərazisi 600 hektardır. Şəhərdə ən gözəl ünvan olan Heydər Əliyev prospekti ilə yanaşı, 16 küçə var. Son illərdə şəhərin inzibati ərazi bölgüsünə daha 3 məhəllə əlavə edilib. Bütün küçə və məhəllələrdə yerləşən ictimai yaşayış binalarında, idarə, müəssisə və təşkilatların fəaliyyət göstərdiyi inzibati binalarda müasir şərait yaradılıb. Binalara kommunikasiya xətləri çəkilib. İsitmə, soyutma və yanğından mühafizə sistemləri ilə təmin olunan binalar isti, soyuq, rütubət və radiasiyaya davamlı izolyasiya qatına malikdir. Həyətlərdə geniş abadlıq işləri aparılıb, istirahət yerləri istifadəyə verilib.

Bura Heydər Əliyev prospektidir. Rayonun idarə, müəssisə və təşkilatlarının böyük əksəriyyəti bu ünvanda yerləşir. Culfa Rayon Uşaq Musiqi Məktəbi, Mədəniyyət Evi, uşaq bağçası, Şahmat Məktəbi, Əhalinin Sosial Müdafiə Mərkəzi, Dövlət Sosial Müdafiə Fondunun Culfa Rayon Şöbəsi, Maliyyə, Polis, Vergilər şöbələri, Kapital Bankın rayon filialı, 6 saylı Culfa-Babək Seçki Dairəsi, Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatı, rayon Prokurorluğu və Məhkəmə, Qaz İstismarı İdarəsi və digər təşkilatlar üçün binalar ümummilli liderin adını daşıyan prospektə xüsusi gözəllik bəxş edib. Həmin təşkilatlarda çalışan əməkdaşlar üçün müasir iş şəraiti yaradılıb. Prospektin yolu da yenidən qurulub.

İcra nümayəndəsi ilə üz tuturuq digər ünvanlara. Bura isə şəhid Elşad Nağıyev küçəsidir. Bu küçədə də həyata vəsiqə alan yeni tikililər son illərin quruculuq ərməğanlarıdır. Belə tədbirlər şəhərin quruculuq xəritəsini xeyli zənginləşdirib. Əhalinin sağlamlığının keşiyində dayanmaq üçün ağxalatlı insanların istifadəsinə verilən xəstəxana binası müasir tibbi avadanlıqlarla təmin olunub. Culfa, əsasən, kənd təsərrüfatı rayonudur. Bu sahənin inkişafına davamlı qayğının ifadəsidir ki, hər il bölgədə tonlarla kənd təsərrüfatı məhsulları istehsal olunur. İstehsalçıların həmin məhsulları satması üçün bəhs olunan ərazidə bazar istifadəyə verilib. Bazarla üzbəüz isə culfalılar böyük ticarət mərkəzinin xidmətindən yararlanırlar.

Şəhərdəki digər küçə və məhəllələrdə də son 18 ildə xeyli iş görülüb. Həmin işləri sadalamaq fikrindən uzağıq. Çünki bu işlər bir deyil, beş deyil. İstədik ki, həmin işlərə, həyata keçirilən genişmiqyaslı tədbirlərə culfalıların münasibətini öyrənək. Culfa Rayon Uşaq Musiqi Məktəbinin müəllimi Tahir Səmədov dedi:

– Culfa şəhəri culfalıların gözləri qarşısında saatbasaat, günbəgün, aybaay dəyişir. Dövlətimizin muxtar respublikanın bütün bölgələrinə göstərdiyi qayğını burada bütün çalarları ilə görmək mümkündür. Sevinirik ki, Şərqin qapısına göstərilən diqqət həm də insanların doğma yurd yerinə bağlılıq hisslərini artırır. Culfa şəhəri sərhəd bölgəsidir. Buraya hər gün İran İslam Respublikasından və bu dövlətdən keçərək ölkəmizin digər bölgələrindən çoxlu qonaqlar gəlir. Onlar da burada, bu kiçik şəhərdə görülən işlərdən heyrətlərini gizlətmirlər. Culfalılar da çalışırlar ki, qurulanları, yaradılanları qoruyub saxlaya bilsinlər, Culfaya gələn qonaqlarda yüksək təəssüratlar yaratsınlar.

Bir neçə il əvvəl "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi olmuş 1 nömrəli şəhər tam orta məktəbinin müəllimi Kübra Zamanova:

– Muxtar respublikamızın inkişafına həsəd aparmamaq mümkün deyil. Qədim və doğma diyarımız inkişafının elə bir səviyyəsinə qədəm qoyub ki, ötən qısa müddət ərzində belə böyük həcmdə işlər görülməsinə inana bilmirsən. Ancaq bu, reallıqdır. Həyatımızın bütün sahələri yeniliklərlə doludur. Bir neçə il bundan əvvəl Culfanı görən kimsə bu gün bu bölgəyə üz tutsa, buranı tanımaz. Ən gözəl cəhət isə ondadır ki, quruculuq tədbirləri şəhərin mərkəzi ilə məhdudlaşmır, hər tərəfi əhatə edir. Bu da hamımızı sevindirir. İndi deyirik ki, biz də şəhərdə yaşayırıq.

Şəhər haqqında öz ürək sözlərini bildirən 3 nömrəli tam orta məktəbin tarix müəllimi Vidadi Abbasov

Qədim şəhərin tarixi

barədə məlumat verir. Bildirir ki, 1727-ci ildə Culfa rayonunun ərazisi bir neçə nahiyədən ibarət olub. Culfa isə kənd kimi Dərəşam nahiyəsinə daxil edilib. 1926-cı ildə dairə mərkəzinə çevrilib. Buraya rayon statusu 1930-cu ildə verilib. Rayon mərkəzi 1949-cu ilə kimi Əbrəqunus adı ilə fəaliyyət göstərib. Həmin il Culfa rayonu yaradılıb. 1963-cü ildə indiki Ordubad rayonunun ərazisi də Culfa rayonuna daxil edilib. 1965-ci ildə rayonlar ayrılıb.

Vidadi müəllim onu da bildirir ki, qədim Culfa indi yerləşdiyi ərazidən 4-5 kilometr aralı məsafədə olan Gülüstan kəndi ərazisində Araz çayı boyunca uzanan karvan yolu üzərində qərar tutub. Culfa haqqında bir çox alimlər, səyyahlar, tacirlər maraqlı fikirlər söyləyiblər. Tarixi mənbələrə görə, 1603-cü ildə şəhər I Şah Abbas tərəfindən dağıdılıb. Bunu alman alimi A.Oleari də öz əsərində yazır. İngilis taciri Nyuberiyə görə, o vaxt şəhərdə evlərin sayı 3 minə, əhalinin sayı isə 20 min nəfərə çatırdı. Culfa şəhərinin adına Səfəvilər dövlətinin başlıca şəhərləri arasında rast gəlmək olur. Tarixçi Şərafəddin Əli Yəzdinin "Zəfərnamə" əsərində deyilir ki, Culfa Naxçıvan vilayətində Araz çayının dağın ətəyindən keçdiyi ərazidə yerləşir. Burada məşhur Ziyaülmük körpüsü salınıb. Şəhərin adının etimologiyasına gəldikdə isə, "Culfa" sözü müxtəlif variantlarda işlənib. Bəziləri bu sözün "toxucu" mənasını verdiyini, müxtəlif mənbələrdə "Cula", "Cülahə", "Culh", "Culha" yazılan bu sözün fonetik dəyişikliklərə uğrayaraq "Culfa" şəklinə düşdüyünü söyləyirlər. Tarixi mənbələrdə də bu şəhərdə vaxtilə toxuculuqla məşğul olunduğu göstərilir. Bu da o deməkdir ki, Culfa Şərq və Qərb arasında mühüm ticarət əlaqələrinin keçid məntəqəsi olmaqla, burada da müxtəlif istehsal sahələri mövcud olub.

Sahibkarlıq inkişaf etdirilir

Son illər muxtar respublikamızda sahibkarlıq mühitinin inkişaf etdirilməsi güclü sahibkarlar təbəqəsinin formalaşmasına stimul olub. Müxtəlif istehsal və emal sahələrinin fəaliyyət göstərdiyi Culfada əhalinin zəruri tələbat mallarına və xidmət sahələrinə olan ehtiyacını ödəmək məqsədilə hərtərəfli şərait yaradılıb. Sahibkarlar bu şəraitdən səmərəli istifadə edir, daxili bazarda yerli istehsal məhsullarının xüsusi çəkisinin artırılmasına çalışır, göstərilən qayğıya əməli işlə cavab verməyə səy göstərirlər. Hazırda Culfa şəhərində 5 çörək istehsalı, 1 göbələk emalı müəssisəsi, 2 şadlıq evi, bazar, 2 ticarət mərkəzi və digər istehsal, emal və xidmət sahələri var. Əhali bu sahələrin fəaliyyətindən razılıq edir.

Qışa hazırlığın vəziyyəti...

Bu barədə məlumat almaq üçün Culfa Rayon Kommunal Müəssisələri Kombinatı və Mənzil İstismar Sahəsi ilə əlaqə saxladıq. Bildirdilər ki, Culfa şəhərinin əhalisinə – 18 binanın 766 mənzilinə 2013-2014-cü ilin payız-qış mövsümündə istilik enerjisi 13 qazanxana vasitəsilə veriləcəkdir. Həmin qazanxanaların 3-ü mərkəzləşdirilib. Hər iki təşkilat tərəfindən qısa müddət ərzində binadaxili istilik xətlərinin yoxlanması başa çatdırılıb. Şəhərin Heydər Əliyev prospektində, M.Əsgərov, M.Hüseynzadə küçələrində yerləşən binalarda cari təmir işləri aparılır.

Öyrəndik ki, həmin təşkilatların balansında olan avtomaşınlar və digər texnikalar işlək vəziyyətə gətirilib, kifayət qədər ehtiyat hissələri əldə olunub. Görülən işlər belə deməyə əsas verir ki, 2013-2014-cü ilin payız-qış mövsümü Culfa şəhərinin sakinləri üçün problemsiz başa çatacaq.

Hər açılan sabah həyatın davam etdiyinin göstəricisidir. Culfa şəhərində də hər açılan sabah bir yeniliklə müşahidə edilir. Bu yeniliyi yaradanlar Naxçıvanın müasir tarixinə öz imzasını yazan insanlardır. Odur ki, onların əməyi öz yurdunu qəlbən sevənlər tərəfindən yüksək dəyərləndirilir. Yurdunu qəlbən sevənlər isə qurulanların, yaradılanların qayğısına qalmağı bacarırlar. Bilirlər ki, bütün bunlar onlar və gələcək nəsillər üçündür. Özün üçün olanın qədrini bilmək öz sabahını düşünməkdir.

Sabahınız daha xoş olsun.

Muxtar MƏMMƏDOV

"Cahan İnşaat" Sənaye Kompleksinin ərazisində yeni xidmət sahəsi fəaliyyətə başlayacaq

Ölkəmizin ayrı-ayrı regionlarında olduğu kimi, muxtar respublikamızda da genişmiqyaslı quruculuq tədbirləri həyata keçirilir, Naxçıvan şəhərindən, rayon mərkəzlərindən tutmuş ucqar dağ və sərhəd kəndlərinədək bütün yaşayış məntəqələrində inzibati və sosial obyektlər tikilib istifadəyə verilir. Təbii ki, tikinti-quraşdırma işlərinin sürətlə aparılmasında, inşaat işlərinin vaxtında və keyfiyyətlə başa çatdırılmasında mühüm rol oynayan beton qarışığı və beton məmulatları istehsal edən müəssisələrin yaradılması da diqqət mərkəzində saxlanılmış, müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla müxtəlif gücə malik zavodlar tikilib istifadəyə verilmişdir. Beton məmulatları istehsal edən müəssisələr istifadəyə verilənədək muxtar respublikamızda aparılan tikinti işləri üçün lazım olan əsas inşaat materialları – beton primitiv üsullarla hazırlanır, qum istehsalı ekologiyaya zərərli, kortəbii şəraitdə həyata keçirilirdi. Obyektlərdə istifadə olunan digər beton məmulatları isə qonşu ölkələrdən gətirilirdi. Bu müəssisələrin işə salınması ilə həmin problemlər aradan

qaldırılmış, yerli xammaldan səmərəli istifadə olunmaqla yüksəkkeyfiyyətli beton və beton məmulatları istehsalına başlanılmışdır.

Muxtar respublikada sahibkarlığın inkişafına göstərilən dövlət qayğısından və yaradılan əlverişli biznes mühitindən bəhrələnərək fəaliyyətə başlayan "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqı ərzaq məhsulları ilə yanaşı, tikinti materialları istehsal edən zavod və fabriklərin yaradılmasına da nail olmuşdur. Naxçıvanda həyata keçirilən genişmiqyaslı quruculuq tədbirlərində yaxından iştirak edən, daxili bazarı tələbata uyğun keyfiyyətli tikinti materialları ilə təmin edən müəssisələrdən biri də 2013-cü ilin aprel ayından fəaliyyətə başlayan "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqının "Cahan İnşaat" Sənaye Kompleksidir.

Babək rayonunun Araz kəndi yaxınlığında, Naxçıvançayın sahilində tikilib istifadəyə verilən "Cahan İnşaat" Sənaye Kompleksi muxtar respublikamızda həyata keçirilən genişmiqyaslı quruculuq tədbirləri nəticəsində yerli tikinti materiallarına artan tələbatın ödənilməsi zərurətindən yaradılmışdır. Ümumi sahəsi 8 hektar olan kompleksdə Beton Məmulatları İstehsalı Zavodu, daşqırma və qumələmə sahəsi yaradılmış, Türkiyənin bu sahədə qabaqcıl təcrübəyə malik "Pİ Makina" şirkətinin istehsalı olan kompüterlə idarəetmə mərkəzi ilə təmin olunmuş müasir texnoloji avadanlıqlar quraşdırılmışdır.

Gücü saatda 150 kubmetr olan daşqırma və qumələmə sahəsində 4 çeşiddə məhsul istehsal olunur.

Müasir tələblər səviyyəsində qurulan Beton Məmulatları İstehsalı Zavodunda yerli xammaldan istifadə edilərək yüksəkkeyfiyyətli beton istehsal edilir. Zavodun istehsal gücü saatda 120 kubmetrdir. İstehsal prosesi avtomatlaşdırılmış texnologiya əsasında həyata keçirilir. İstehsal sahələrində fasiləsiz iş rejiminin təmin olunmasında mühüm rol oynayan maşın-mexanizmlərə texniki xidmətin təşkili və onların istismar müddətinin uzadılması da mühüm əhəmiyyətli sahə kimi diqqət mərkəzində saxlanılmış, cari ilin aprel ayında kompleksin ərazisində Maşın-Mexanizmlər İdarəsi üçün yeni binanın və maşın-mexanizmlərə texniki baxış sahəsinin tikilməsinə başlanılmışdır. Obyektdə tikinti-quraşdırma işləri başa çatdırılmışdır. 5 bölməli texniki xidmət sahəsində son tamamlama işləri görülür. Xidmət sahəsində pultla idarə edilən 5 tonluq körpükran, avtomatik qapılar quraşdırılmışdır. Həmçinin ağırtonnajlı yük avtomobillərinə texniki xidmət göstərilməsi üçün Türkiyə Respublikasından müasir texnoloji avadanlıqlar alınıb gətirilmişdir. Onu da qeyd edək ki, yaxın vaxtlarda istifadəyə veriləcək maşın-mexanizmlərə texniki baxış sahəsində "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqının texnikaları ilə yanaşı, digər idarə, müəssisə və təşkilatların da yük avtomobillərinə texniki xidmət göstəriləcəkdir. Texniki xidmət sahəsinin fəaliyyətə başlaması məşğulluğun təmin olunmasında da mühüm rol oynayacaq, 20-yə yaxın mütəxəssis daimi işlə təmin olunacaqdır.

Kərəm HƏSƏNOV

"Naxçıvan" Sərhəd Diviziyasında prezident seçkilərinə hazırlıqla bağlı seminar-müşavirə keçirilmişdir

Oktyabrın 2-də "Naxçıvan" Sərhəd Diviziyasında prezident seçkilərinə hazırlıqla bağlı seminar-müşavirə keçirilmişdir. Seminarı giriş sözü ilə açan "Naxçıvan" Sərhəd Diviziyası komandirinin şəxsi heyətlə iş üzrə müavini Həmzə İmanov qeyd etmişdir ki, seminarın keçirilməsində məqsəd hərbi hissələrdə məntəqə seçki komissiyalarının yaradılması qaydası və hərbi qulluqçulara səsvermə hüquqları barədə məlumat verməkdən ibarətdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının şöbə müdiri Cəlil Rüstəmov çıxış edərək hərbi qulluqçuların seçki hüquqlarının həyata keçirilməsinin qanunvericilik əsasları haqqında məlumat vermişdir.

Seminarda "Hərbi qulluqçuların seçki hüququ" mövzusunda çıxış edən Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Ülkər Bayramova qeyd etmişdir ki, müasir dövrdə insanın hüquq və azadlıqları, onların təmin edilməsi və səmərəli şəkildə müdafiəsi hər bir dövlətin və cəmiyyətin inkişafının mühüm faktoru kimi çıxış edir. Ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu və 12 noyabr 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsində insan hüquq və azadlıqlarının ən yüksək dəyər kimi təsbit edilməsi bunun bariz nümunəsidir. Konstitusiyamızın bu maddəsində deyilir ki, "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının və vətəndaşlara layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir". Dövlətimizin təhlükəsizliyinin və milli maraqlarının qarantı olan Azərbaycan Respublikası Silahlı Qüvvələrində xidmət edən hərbi qulluqçuların hüquq və azadlıqlarının müdafiəsi də Konstitusiyamızla təmin edilmişdir. "Hərbi qulluqçular da hər bir Azərbaycan Respublikası vətəndaşı kimi Konstitusiyada təsbit olunmuş vətəndaşlıq hüquqlarının başlıca təzahür formalarından biri olan aktiv və passiv seçki hüququna malikdirlər və bu hüquqları həyata keçirərkən eyni hüquq və vəzifələrə malikdirlər", – deyən Ülkər Bayramova Azərbaycan Respublikasının Konstitusiyası, Seçki Məcəlləsi və "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikası Qanununun müvafiq maddələrində təsbit olunmuş hərbi qulluqçuların seçki hüquqları ilə əlaqədar ətraflı məlumat vermişdir.

Mərkəzi Seçki Komissiyasının sədri Məhərrəm Qasımov hərbi qulluqçuların səsvermələrinin təşkili və səsvermə qaydaları haqqında ətraflı məlumat verərək bildirmişdir ki, hərbi qulluqçular hərbi hissənin yerləşdiyi ərazidə yaradılan ümumi seçki məntəqələrində səs verirlər. Yaşayış məntəqələrindən kənarda yerləşən hərbi hissələrdə seçki məntəqələrinin yaradılmasına yalnız o halda yol verilir ki, hərbi qulluqçuların ümumi seçki məntəqələrinə ictimai nəqliyyatla çatdırılması üçün 1 saatdan çox vaxt lazım olsun və hərbi qulluqçuların ümumi sayı 50-dən artıq olsun. Hərbi hissələrdə seçki məntəqələri hərbi hissə komandiri tərəfindən elə yerdə təşkil edilməlidir ki, həmin seçki məntəqəsinə giriş maneəsiz olsun. Hərbi hissədən kənarda yaşayan hərbi qulluqçular seçici siyahılarına yaşayış yeri üzrə ümumi əsaslarla daxil edilirlər. Hərbi hissədə hərbi qulluqçu olan seçicilərin siyahısı, onların hərbi hissənin yerləşdiyi ərazidə yaşayan ailə üzvlərinin və digər seçicilərin siyahısı hərbi hissənin komandiri tərəfindən tərtib olunur. Məntəqə seçki komissiyalarının tərkibinin müəyyən edilməsi prinsipi ümumi əsaslarla aparılır.

Tədbirə "Naxçıvan" Sərhəd Diviziyası komandirinin şəxsi heyətlə iş üzrə müavini Həmzə İmanov yekun vurmuşdur.

Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının mətbuat xidməti

Seçki hər bir xalqın həyatında mühüm ictimai-siyasi hadisədir. Çünki bu proses vasitəsilə xalq həm öz rəhbərini, həm də dövlət orqanlarında onu təmsil edəcək insanları seçir və bununla da, hakimiyyətin formalaşmasında iştirak edir. Azərbaycan qarşıdan gələn 9 oktyabr prezident seçkilərinə hazırlaşır.

Məntəqələr seçkiyə tam hazırdır

Bu mühüm tarixi gündə xalq növbəti dəfə növbəti 5 il üçün öz Prezidentini seçəcək. İndi Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da bu mühüm siyasi kampaniyaya ciddi hazırlıq işləri aparılır. Hamıya məlumdur ki, Azərbaycanda beynəlxalq təşkilatların müsbət qiymətləndirdiyi seçki ənənəsi formalaşıb. Bu ənənə ədalətə, şəffaflığa söykənərək milli dəyərlərimizi də özündə əks etdirir. Bu siyasi günə bir neçə gün qalmış Naxçıvan şəhərindəki bir neçə seçki məntəqəsində olduq. Əvvəlcə 4 saylı Naxçıvan Şəhər Seçki Dairəsinə baş çəkib vəziyyətlə tanış olduq. Qeyd edək ki, seçki dairəsi 37 məntəqəni əhatə edir. Seçki məntəqələri yeni tikilmiş və ya əsaslı təmir edilmiş binalarda fəaliyyət göstərir.

4-3 saylı seçki məntəqəsi prezident seçkilərinə tam hazırdır. Seçki məntəqəsinin yerləşdiyi bina yüksək səviyyədə təmir olunmuş, telefonlaşdırılmış, lazımi avadanlıqlarla təchiz edilmişdir. Məntəqənin önündə yerləşən lövhəyə seçici siyahıları vurulmuşdur. Hər bir seçici öz adının seçici siyahısında olub-olmadığını həmin siyahılar əsasında dəqiqləşdirə bilər.

Məntəqə seçki komissiyasının sədri Elbrus İsayev deyir ki, məntəqədə vətəndaşların seçki hüquqlarının qorunması üçün hər cür şərait yaradılmışdır. Qeyd etdi ki, seçki günü məntəqə seçki komissiyası üzvlərinin öz vəzifələrini düzgün icra etmələri və səsvermə protokollarının təlimata uyğun doldurulması səsvermənin nəticələrinin müəyyən olunması baxımından çox vacibdir. Demək olar ki, məntəqəmiz bu vəzifələri icra etməyə tam hazırdır. Bunun üçün seminar-treninqlərdə iştirak etmişik.

Qeyd edək ki, Azərbaycanın seçki tarixində 2008-ci ildən başlayaraq tətbiq olunan və seçki məntəqələrindən kənarda internet vasitəsilə səsvermə prosesini canlı izləmə imkanı verən veb-kameralardan istifadə təcrübəsi bu seçkilərdə də davam etdiriləcəkdir. Ölkəmizdəki seçki məntəqələrində əvvəlki seçkilərdə veb-kameralar quraşdırılmış məntəqələrin sayı 2 dəfə artırılaraq 500-dən 1000-ə (təxminən 20 faizə) çatdırılmışdır. Muxtar respublikanın 35 seçki məntəqəsində veb-kameralar artıq quraşdırılmışdır. 4 saylı Naxçıvan Şəhər Seçki Dairəsinin əhatə etdiyi məntəqələrin 5-i veb-kameralıdır. Həmin məntəqələrdən 4-10 saylı seçki məntəqəsinə üz tutduq. Burada da hər şey qaydasındadır. Məntəqədə seçkiyə zidd olacaq heç bir neqativ hala rast gəlmək olmaz. Məntəqədən bildirdilər ki, bu günlərdə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən seçki dairələrinin veb-kamera olan məntəqələrinin məntəqə seçki komissiyalarının sədr, katib və üzvlərinin iştirakı ilə keçirilən seminar-treninqdə iştirak ediblər.

4 saylı seçki dairəsinin əhatə etdiyi 4-12, 4-28, 4-34 saylı məntəqələrdə də olduq. Seçki məntəqələri Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun təşkil olunmuş, hər bir seçicinin öz iradəsini azad və demokratik şəkildə ifadə etməsi üçün əlverişli şərait yaradılmışdır.

Sara ƏZİMOVA

Türkiyənin Naxçıvandakı Baş konsulu Cenk Ünal:

Naxçıvanda fəaliyyət göstərmək qürurvericidir

Türkiyənin Naxçıvan Muxtar Respublikasındakı Baş konsulu Cenk Ünal 2011-ci ildən muxtar respublikamızda diplomatik fəaliyyətdədir. Bu il oktyabr ayının 5-də Naxçıvanda diplomatik fəaliyyətini başa vuracaq C.Ünal Türkiyə Cümhuriyyətinin Naxçıvandakı Baş Konsulluğunda "Şərq qapısı" qəzetinin və Naxçıvan Dövlət Televiziyasının əməkdaşlarına müsahibə verib, jurnalistləri maraqlandıran sualları cavablandırıb.

Elnur KƏLBİZADƏ ("Şərq qapısı" qəzeti): 2011-ci ildən Naxçıvandasınız. Doğrudur, Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Türkiyə üçün, əslində, yad bir ölkə sayılmır. Amma hər halda biz istərdik ki, sizin Naxçıvanla bağlı yekun təəssüratlarınızı öyrənək.

Cenk ÜNAL: Bildiyiniz kimi, oktyabr ayının beşində səlahiyyət müddətim başa çatır. Naxçıvanda təqribən iki il fəaliyyət göstərdim və bu iki ili, həqiqətən də, həm diplomatik fəaliyyət baxımından, həm də şəxsi olaraq həyatımın ən mühüm illəri kimi xatırlayacağam. Ən əsası isə Naxçıvanda heç vaxt özümü yad ölkədəki kimi hiss etmədim. Türkiyə və Azərbaycan hər ikisi müstəqil dövlətdir, hər birinin öz sərhədləri var. Amma əgər bir türk diplomatı Azərbaycanda fəaliyyət göstərirsə, bu, əslində, öz ölkəsində fəaliyyət göstərmək deməkdir. Çünki iki ölkə arasında sərhədlər, sadəcə, coğrafi sərhədlərdir, insanlar arasında heç bir sərhəd yoxdur.

Vüsal MURADOV (Naxçıvan Dövlət Televiziyası): Naxçıvandakı sabitliyi və burada gedən inkişaf proseslərini necə dəyərləndirirsiniz?

Cenk ÜNAL: Naxçıvandakı böyük inkişafı ikiillik fəaliyyətim müddətində şəxsən müşahidə etdim. Naxçıvan böyük bir tikinti meydançasıdır. Bir gün inşaat işləri bir yerdə bitir, sabah isə digər bir yerdə işlərin davamı başlayır. Müasir yollar, binalar inşa edilir. Qədim binalar təmir-bərpa olunur, yenidən qurulur. Sadəcə, Naxçıvan şəhərini nəzərdə tutmuram. Naxçıvan şəhərindən kənara, rayonlara gedən zaman kəndlərdə də bu inkişafın şahidi oluruq. Mən burada məktəblərin vəziyyətinə xüsusilə diqqət yetirirdim. Köhnə, yararsız halda olan bir məktəb binası belə, görmədim. Demək olar ki, bütün məktəblər üçün yeni binalar tikilib. Eyni zamanda təbii qaz barədə də bu sözləri ifadə edə bilərik. Ən ucqar kəndlərə qədər təbii qazın verilişi təmin olunub. Naxçıvanda əhalinin ehtiyaclarının təmin olunması üçün lazım olan hər şey edilir. Muxtar respublika dünyanın ən sabit və təhlükəsiz bölgələrindən biridir.

Elnur KƏLBİZADƏ: Məlumdur ki, diplomatik fəaliyyəti həyata keçirərkən birbaşa olaraq dövlət və hökumət rəsmiləri ilə ünsiyyətdə olursunuz. Türkiyə üçün strateji bir nöqtədə yerləşən Naxçıvanda dövlət və hökumət rəsmiləri ilə münasibətlərinizi necə dəyərləndirirsiniz?

Cenk ÜNAL: Bu sualı mənə ünvanladığınız üçün təşəkkür edirəm. Bu sual tam cavablandırmaq istədiyim bir sualdır. Burada olduğum ikiillik müddət ərzində mənə fəaliyyətimdə ən yüksək səviyyədə diqqət və qayğı göstərildi. Bizim üçün yaradılan imkanlar sayəsində Naxçıvanda fəaliyyətimizi ən yüksək səviyyədə həyata keçirdik, heç bir problemlə qarşılaşmadıq.

Burada olduğum müddətdə Naxçıvanda gedən prosesləri yaxından izlədim. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bundan sonrakı fəaliyyətimdə hər zaman örnək alacağım dövlət xadimidir.

Elnur KƏLBİZADƏ: Bildiyiniz kimi, Naxçıvanda son illərdə qurulan yeni istehsal sahələri nəinki daxili tələbatı ödəyir, həm də ixracyönümlüdür. Hansı məhsulların Naxçıvandan Türkiyəyə ixracı mümkündür?

Cenk ÜNAL: Bütün məhsulların. Mən ixtisasca iqtisadçıyam. Müasir iqtisadi sistem tələb edir ki, hər bir ölkənin idxalatı ilə yanaşı, ixracatı da olsun. Yəni, sadəcə, idxal edərək, ya da sadəcə, ixrac edərək ölkə iqtisadiyyatının idarə edilməsi mümkün deyildir. Naxçıvanda, məndə olan məlumata görə, 300-dən çox növdə məhsul istehsal olunur. Bu məhsullardan ən azı 60-70 növünün ixrac potensialı yüksəkdir. Bu isə kifayət qədər böyük bazardır. Bu sayda məhsulun Türkiyəyə ixrac edilməsi, satılması imkanları vardır. Naxçıvan bu gün bir çox ölkələrlə idxal-ixrac əlaqələrinə malik olan bir muxtar respublikadır. Təbii ki, burada Türkiyənin xüsusi bir yeri vardır. Həm qonşu, həm də qardaş ölkə olaraq Türkiyə Naxçıvan üçün ixracat imkanlarını artıracaq və bu da imkan verəcək ki, Naxçıvanda istehsal olunan məhsullar Türkiyəyə ixrac olunsun. Naxçıvanda istehsal sahələri genişləndikcə Türkiyədə məhsulu satacaq bazar tapmaq imkanları daha da artacaqdır.

Elnur KƏLBİZADƏ: Təhsil sahəsindəki əlaqələrdən danışaq. Bir neçə gün əvvəl Türkiyədə olarkən dostlarımızdan biri Türkiyə vətəndaşlarının Naxçıvanda ali bakalavr, magistr və ya doktorantura təhsili aldıqdan sonra Türkiyədə diplomlarının tanınması məsələsi ilə bağlı sual ünvanlamışdı. Baş konsul olaraq biz bu sualı sizdən soruşmaq istərdik. Bu sahədə vəziyyət necədir?

Cenk ÜNAL: Belə bir problem bəzən olur. Türkiyə Cümhuriyyəti Yüksək Öyrətim Kurulu tərəfindən Naxçıvan Dövlət Universitetinin 6 fakültəsinin məzunlarının diplomları heç bir qeyd-şərtsiz tanınır. Bu bölümlərdən birinin məzunu olduğunuz təqdirdə sizin diplomunuz heç bir problem olmadan Türkiyədə qəbul edilir. Təhsil aldığınız fakültə o altı fakültədən biri deyilsə, Türkiyədə müvafiq imtahanlar verməklə və ya müəyyən kurslar keçməklə diplomunuzun tanınmasına nail ola bilərsiniz. Bu, magistratura və doktoranturada təhsil alanlar üçün də belədir. Məlumat üçün deyim ki, hazırda Naxçıvanda təqribən 300-ə yaxın türkiyəli tələbə təhsil alır. Bu tələbələr həm də Naxçıvanla Türkiyə arasında mənəvi bir dostluq körpüsüdürlər. Çünki diplomatiya, sadəcə olaraq, diplomatlar arasında olmur. Buradakı türk tələbələr də, əslində, bir təmsilçidirlər. Biz tələbələrimizin burada təhsil almasından, onlara yaradılan şəraitdən çox məmnunuq. Fəaliyyətim müddətində daha çox türkiyəli gəncin Naxçıvanda təhsil alması yönündə bir sıra işlər həyata keçirdik. Ümid edirəm ki, qarşıdakı illərdə təhsil sahəsində əlaqələr daha da güclənəcək.

Elnur KƏLBİZADƏ: Naxçıvanda fəaliyyətə başladığınız ilk dövrlərdə Türkiyədəki qəzetlərdən birinə müsahibənizdə Naxçıvanın Türkiyənin təkcə Azərbaycanla deyil, həm də bütün türk dünyası ilə sərhədi olduğunu demişdiniz. Naxçıvandan əvvəl isə İsrail, Serbiya, Macarıstan, Pakistan kimi ölkələrdə diplomatik fəaliyyət göstərmisiniz. Azərbaycanın Naxçıvan Muxtar Respublikasının o ölkələrdən fərqi nə idi?

Cenk ÜNAL: Böyük fərq var. Həqiqətən də, böyük fərq var. Biz diplomatıq. Diplomatlar digər ölkələrə öz ölkələrinin maraqlarını qorumaq, müdafiə etmək və təmin etmək üçün gedirlər. Naxçıvanda belə bir diplomatiya həyata keçirə bilmərik, bunu etməməyimiz lazımdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin də dediyi kimi: ***"Biz bir millət, iki dövlətik"***. Başqa sözlə desək, Naxçıvanda fəaliyyət göstərən türk diplomatı iki millətin ortaq maraqlarını və mənafelərini qorumalıdır. Burda heç vaxt Türkiyə üçün nə edək kimi bir düşüncə ilə fəaliyyət göstərmədik. Naxçıvanda həmişə ortaq, bərabər şəkildə nə edə bilərik düşüncəsi ilə fəaliyyət göstərdik. Digər fəaliyyət göstərdiyim ölkələrlə ən böyük fərqlərdən biri budur. Təbii ki, onlar da Türkiyə üçün vacib ölkələr idi. Amma bir daha deyim ki, Naxçıvanın yeri tam ayrıdır. Burada fəaliyyət göstərdiyimiz müddətdə Azərbaycanla, onun Naxçıvan Muxtar Respublikası ilə Türkiyənin əlaqələrinin inkişafı üçün ən kiçik bir fəaliyyətimiz oldusa, bu, bizim üçün hər şeydən daha vacibdir. Naxçıvan sərhədinin Türkiyənin türk dünyası ilə sərhədi olması fikrinə gəlincə, Türkiyənin xarici işlər naziri Naxçıvana gələrkən bunu daha gözəl bir şəkildə ifadə etdi. Naxçıvanı Qafqazın göz muncuğu olaraq dəyərləndirdi. Qardaş Azərbaycanın bir parçası olan bu torpaqda fəaliyyət göstərmək qürurvericidir.

Maraqlı müsahibəyə görə çox sağ olun!

Elnur KƏLBİZADƏ

Xalqın iradəsinin ən yüksək ifadəsi dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarına azad, demokratik seçkilərin keçirilməsi, habelə dövlət həyatının ən mühüm məsələlərinə dair öz rəyini ümumxalq səsverməsi (referendum) yolu ilə bildirməsidir. Seçkilər və referendum, demək olar ki, bütün dünyada vətəndaşların, cəmiyyətin ictimai həyatında və dövlət işlərində iştirakının ən kütləvi formasıdır. Siyasi mədəniyyətin, hüquq şüurunun və hüquq mədəniyyətinin formalaşmasında, xalqın ümumi iradəsinin milli maraqlar ətrafında birləşməsində seçkilərin və referendumun əhəmiyyəti olduqca böyükdür.

Seçkilərdə yerli və beynəlxalq (xarici) müşahidəçilərin hüquqları, vəzifələri və səlahiyyətləri

Ədalətli və demokratik seçkilər ölkənin suverenliyini əks etdirir ki, burada da xalq hökumətin səlahiyyətlərinin və qanuniliyinin əsasını təşkil edən söz azadlığına malik olur. Seçkilərin ədalətli keçirilməsi siyasi hakimiyyət uğrunda demokratik prinsiplərə əməl olunmasına və sabitliyin qorunub saxlanılmasına xidmət edir.

Seçkilərin ədalətli olması demokratik idarəçiliyin zəruri şərtidir, çünki bu cür seçkilər vasitəsilə xalq qanunun tələb etdiyi əsaslarla öz iradəsini azad şəkildə ifadə edir.

Seçki müşahidəsi demokratiyanın inkişafının göstəricisi kimi seçkilərin şəffaf keçirilməsində ictimaiyyətin maraqlarını əks etdirir. Seçkinin müşahidə olunması onun ədalətliliyini və legitimliyini qiymətləndirmək, seçki saxtakarlığını və ya seçki pozuntularını aşkara çıxarmaq üçün əsas vasitədir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 41-ci maddəsində seçkilərin müşahidə olunmasının dörd prinsipi nəzərdə tutulur: seçki prosesinə bir namizədin və ya siyasi partiyanın mənafeləri naminə təsir göstərilməməlidir; müşahidə edilən hərəkətlərə aid olan bütün hallar və faktlar nəzərə alınmalıdır; müşahidə açıq aparılmalıdır; müşahidənin yekunları faktlara əsaslanmalıdır.

Seçki Məcəlləsinə əsasən, Azərbaycan Respublikasının bütün ərazisində müşahidə aparmaq niyyətində olan aktiv seçki hüququna malik Azərbaycan Respublikasının vətəndaşı seçkilərin elan olunduğu gündən başlayaraq seçkilərin keçirilməsinə 10 gün qalanadək Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edə bilər, seçki dairəsinin ərazisində müşahidənin aparılmasına dair ərizə isə seçkilərin elan olunduğu gündən başlayaraq seçkilərin keçirilməsinə 5 gün qalanadək müvafiq dairə seçki komissiyasına təqdim edilə bilər. Müşahidəçi Mərkəzi Seçki Komissiyası və dairə seçki komissiyasında qeydiyyatdan keçir, ona müvafiq lövhəcik verilir. Mərkəzi Seçki Komissiyasında qeydiyyatdan keçən müşahidəçi respublika ərazisində yerləşən bütün seçki məntəqələrində, dairə seçki komissiyasında qeydiyyatdan keçən müşahidəçi isə qeydə alındığı seçki dairəsi ərazisindəki seçki məntəqələrində müşahidə apara bilər.

Seçki Məcəlləsinə əsasən, hər bir qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun, seçicilərin təşəbbüs qrupunun məntəqə seçki komissiyası işə başladığı andan səsvermənin nəticələri rəsmiləşdirilənədək məntəqə seçki komissiyasına bir müşahidəçi təyin etmək hüququ vardır. Qanuna əsasən, həmin müşahidəçilərin qeydiyyatdan keçmələri tələb olunmur.

Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) Azərbaycan Respublikası vətəndaşının müşahidəaparma qaydaları Azərbaycan Respublikasının Seçki Məcəlləsinə, "Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) yerli müşahidənin aparılması qaydaları haqqında təlimat"a müvafiq olaraq tənzimlənir.

Yerli müşahidəçinin səlahiyyət müddəti ona müvafiq seçki komissiyası tərəfindən bu statusun verildiyi andan başlanır və müvafiq məhkəmələrdə seçkilərlə (referendumla) əlaqədar bütün mübahisələrə baxıldıqdan sonra seçkilərin (referendumun) yekunlarının (ümumi yekunlarının) rəsmi dərc edildiyi gün bitir.

Seçki Məcəlləsinə əsasən, xarici vətəndaşlar xüsusi dəvət əsasında müşahidəçi qismində çıxış edə bilərlər. Dəvətlər seçkilərin təyin edilməsi barədə qərar rəsmi dərc edildikdən sonra Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Mərkəzi Seçki Komissiyası tərəfindən göndərilə bilər. İnsan və vətəndaşların hüquq və azadlıqlarının qorunması sahəsində nüfuzu olan qeyri-hökumət təşkilatları da beynəlxalq müşahidəçilərin dəvət olunması haqqında öz təkliflərini Milli Məclisin deputatlarına, Mərkəzi Seçki Komissiyasına və ya Xarici İşlər Nazirliyinə verə bilərlər. Qanunvericiliyə əsasən, Azərbaycan Respublikasının vətəndaşları beynəlxalq müşahidəçi statusu ala bilməzlər.

Beynəlxalq müşahidəçi statusunu əldə etmək niyyətində olan xarici vətəndaşlar seçkilərin elan edildiyi gündən başlayaraq seçkilərin keçirilməsinə 10 gün qalanadək müvafiq ərizə ilə Mərkəzi Seçki Komissiyasına müraciət edərək qeydiyyatdan keçməklə Azərbaycan Respublikasının dövlət dilində və xarici dillərin birində vəsiqə – lövhəcik alır. Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) beynəlxalq (xarici) müşahidəçilərin müşahidəaparma qaydaları Azərbaycan Respublikasının Seçki Məcəlləsinə, "Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) beynəlxalq (xarici) müşahidəçilərin fəaliyyət qaydaları haqqında təlimat"a müvafiq olaraq tənzimlənir.

Beynəlxalq müşahidəçinin səlahiyyət müddəti Mərkəzi Seçki Komissiyasında qeydə alındığı gündən başlanır və seçkilərin (referendumun) yekunlarının (ümumi yekunlarının) rəsmi dərc edildiyi gün bitir.

Yerli və beynəlxalq müşahidəçilərin qanunvericiliyə əsasən seçki siyahıları ilə tanış olmaq; səsvermə günü istədiyi vaxt müvafiq seçki məntəqəsinin səsvermə otağında olmaq və ultrabənövşəyi lampadan istifadə etməklə seçicilərin barmaqlarının mürəkkəblə işarələnib-işarələnmədiyini yoxlamaq prosesini izləmək; seçki bülletenləri verilməzdən əvvəl ultrabənövşəyi lampadan istifadə etməklə seçicilərin barmaqlarının mürəkkəblə işarələnməsini müşahidə etmək, seçicilərə seçki bülletenlərinin verilməsini müşahidə etmək; səsvermə yerindən kənarda seçicilərin səs verməsini müşahidə etmək; seçicilərin sayını hesablamaq, seçki bülletenlərinin, ləğv edilmiş seçki bülletenlərinin sayılmasını müşahidə etmək; müşahidənin nəticələrinin seçki komissiyasının protokoluna əlavə olunmasını tələb etmək; seçki komissiyasının qanuni fəaliyyətinə maneə törətmədən müşahidə aparmağı təmin edən şəraitdə və müşahidənin maneəsiz aparılmasına imkan verən müəyyən məsafədən seçicilərin səslərinin hesablanmasına, seçicilərin səsləri hesablanarkən doldurulmuş və ya doldurulmamış hər bir seçki bülleteninə səsin etibarlılığını yoxlamaq məqsədi ilə baxmaq, səsvermənin nəticələri və seçkilərin (referendumun) yekunları (ümumi yekunları) haqqında seçki komissiyasının protokolu və digər sənədlərlə tanış olmaq; səsvermənin təşkili ilə əlaqədar təklif və iradlarla məntəqə seçki komissiyasının sədrinə, o olmadıqda isə onu əvəz edən şəxsə müraciət etmək; seçki komissiyalarının sənədlərinin, o cümlədən səsvermənin nəticələri və seçkilərin (referendumun) yekunları haqqında protokolların, səsvermə günü seçki komissiyasının işə başladığı və seçki qutularının möhürləndiyi andan seçki komissiyaları tərəfindən səsvermənin nəticələri haqqında protokolların qəbul edilməsinədək seçki komissiyaları tərəfindən tərtib edilmiş və ya onlara daxil olmuş qoşma sənədlərin təsdiqlənmiş surətlərinin bir nüsxəsini haqq ödənilmədən çıxarmaq və ya almaq; səsvermədə iştirak edən şəxslərin siyahısı ilə tanış olmaq; müvafiq seçki komissiyalarında seçicilərin səslərinin təkrar hesablamasını müşahidə etmək; seçki sənədlərinin yuxarı seçki komissiyalarına göndərilməsini müşahidə etmək; seçki komissiyasında seçki hərəkətlərinin həyata keçirilməsini müşahidə etmək; səsvermənin nəticələrinin və seçkilərin (referendumun) yekunlarının müəyyənləşdirilməsini müşahidə etmək; səsvermənin nəticələri və seçkilərin (referendumun) yekunları (ümumi yekunları) haqqında protokolların tərtib olunmasını müşahidə etmək; səslərin hesablanmasını və ya təkrar hesablanmasını müşahidə etmək; səslərin paralel sayılmasında iştirak etmək; səsvermənin nəticələrinə dair məntəqə seçki komissiyası protokolunun 1-ci nüsxəsinin dairə seçki komissiyasına göndərilməsini müşahidə etmək; qanunla qadağan olunmayan digər hərəkətlər (hərəkətsizlik) etmək hüquqları vardır. Müşahidəçilər göstərilən hüquqlarını həyata keçirərkən seçki prosesinə maneəçilik törətməməlidirlər.

Qanunvericiliyə əsasən, müşahidəçilərə sadalanan hüquqları həyata keçirərkən seçicilərə seçki bülletenləri vermək; seçiciyə necə səs verəcəyi və ya necə səs verdiyi haqqında sual vermək; seçicinin xahişi ilə onun əvəzinə seçki bülleteni alınması haqqında imza etmək; seçicinin xahişi ilə seçki bülletenini doldurmaq; seçki komissiyalarının həlledici səs hüquqlu üzvləri ilə birlikdə seçki bülletenlərinin hesablanmasında birbaşa iştirak etmək; seçki komissiyalarının işinə maneə törədən hərəkətlər etmək; seçicilər arasında təşviqat aparmaq; bu və ya digər namizədin, siyasi partiyanın, referenduma çıxarılan sualın dəstəklənməsinə yönəldilən və ya dəstəklənməsi kimi qiymətləndirilə bilən hərəkətlər və ya çağırışlar etmək; müvafiq seçki komissiyasının qərarlarının qəbul olunmasına müdaxilə etmək; seçicilərin barmaqlarını mürəkkəblə işarələmək və ya ultrabənövşəyi lampa ilə seçicilərin barmaqlarının işarələnib-işarələnmədiyini yoxlamaq; seçicilərin suallarına cavab vermək (öz statusu ilə bağlı suallar istisna olmaqla); qanunla qadağan edilən digər hərəkətlər (hərəkətsizlik) etmək qadağan edilir. Seçki Məcəlləsinə əsasən, göstərilən tələblərə riayət etməyən yerli müşahidəçinin qeydiyyatı onu qeydə almış seçki komissiyasının müraciəti əsasında müvafiq məhkəmə tərəfindən ləğv edilə bilər. Beynəlxalq müşahidəçilər Azərbaycan Respublikasının qanunlarını, beynəlxalq hüquq normalarını pozduqları hallarda Mərkəzi Seçki Komissiyası onların qeydiyyatını ləğv edə bilər.

Seçki Məcəlləsinə əsasən, yerli və beynəlxalq müşahidəçilər eyni hüquqlara malikdirlər və eyni vəzifələr daşıyırlar. Hər bir halda yerli və beynəlxalq müşahidəçilərə eyni hüquq və vəzifələrin verilməsi ölkədə demokratiyanın mövcud olduğunun əsas göstəricisidir. Müşahidəçilərin sayəsində seçkinin təşkilinin təməl standartları yayılır və güclənir. Seçkilərdə səsvermə vacib olduğu kimi, seçkiləri müşahidə etmək də vacib prosesdir.

Beləliklə, o nəticəyə gələ bilərik ki, Azərbaycan Respublikasında keçirilən seçkilər xalqın iradəsinin özəyidir. Seçkilər yolu ilə xalqın suveren iradəsi reallaşır. Xalqımızın suveren iradəsinin düzgün ifadə olunması isə seçki müşahidəçilərinin vəzifə və səlahiyyətlərini yüksək dərəcədə yerinə yetirmələrindən asılıdır.

Qabil MƏMMƏDOV
Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi

Xalq-ordu birliyinin nümunəsi

Avqustun 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2013-2014-cü ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə muxtar respublika Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi qarşısında qoyulan vəzifələrdən biri də hərbi hissələr üçün yun corabların toxunmasının davam etdirilməsidir. Verilmiş tapşırığın icrasına müvafiq olaraq, nazirlik tərəfindən cari ilin sonuna kimi 5000 cüt yun corabın toxunaraq hərbi hissələrə təhvil verilməsi nəzərdə tutulub.

Oktyabrın 2-də Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən "N" hərbi hissəyə 1567 cüt corab təhvil verilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin rəisi Sevindik Vəliyev çıxış edərək dövlətimizin ordumuza göstərdiyi qayğıdan danışıb. O vurğulayıb ki, bu yun corabları Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə bağlanmış müqavilə əsasında fiziki imkanları məhdud və ahıl vətəndaşlarımız toxuyublar. Bu tədbir həmçinin onların maddi vəziyyətlərinin yaxşılaşmasına xidmət edir. İlin sonunadək 3433 cüt yun corab toxunaraq hərbi hissələrə təhvil veriləcək.

Naxçıvan Qarnizonunun zabiti Mirqiyas Rüstəmov komandanlıq adından bu tədbirin təşkilatçılarına minnətdarlığını bildirib.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti

Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi

dövlət vergi orqanlarına işə qəbul olmaq istəyən vətəndaşlar üçün müsabiqə elan edir

Dövlət vergi orqanlarına xidmətə qəbul "Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə"yə və "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"yə müvafiq olaraq aparılır.

Müsabiqəyə sənəd qəbulu 10.10.2013-cü il tarixdən 11.11.2013-cü il tarixədək aparılır. İştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Vergilər Nazirliyi tərəfindən müəyyən olunmuş formada ərizə (blank Vergilər Nazirliyi tərəfindən verilir)

2. Şəxsiyyət vəsiqəsinin notariat qaydada təsdiq olunmuş surəti

3. Kadrların şəxsi uçot vərəqəsi

4. Tərcümeyi-hal

5. 4x6 sm ölçüdə 2 ədəd, 9x12 sm ölçüdə 1 ədəd, 2,5x3,5 sm ölçüdə 2 ədəd rəngli fotoşəkillər

6. Ali təhsil barədə diplomun notariat qaydada təsdiq olunmuş surəti (xarici ölkədə təhsil almış namizədlərin diplomları qanunamüvafiq qaydada notarifikasiya olunmalıdır)

7. Əmək kitabçasının təsdiq olunmuş surəti (son iş yeri barədə qeydin olması şərti ilə) və ya əmək fəaliyyətinin olmadığı haqqında arayış

8. Yaşadığı yerin poliklinikasından sağlamlıq barədə arayış

9. Narkoloji dispanserdən arayış və yoxlama aktı

10. Yaşadığı ünvan və ailə tərkibi haqqında arayış

11. Nikah, uşaqların doğum və boşanma haqqında şəhadətnamələrin notariat qaydada təsdiq olunmuş surətləri

12. Hərbi biletin qeyd aparılmış bütün vərəqlərinin surəti (notariat qaydada təsdiq olunmuş).

Bu sənədlərdən hər hansı biri çatışmadıqda və ya saxta olduğu aşkar edildikdə namizəd müsabiqəyə buraxılmır. Sənəd qəbulu zamanı əyani şöbədə ali təhsil alan, hərbi xidmətdə olmayan, ali təhsilə malik olmayan, yaşı 35-i keçmiş, məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olmayan hesab edilən və üzərindən məhkumluğu götürülməyən və ya ödənilməyən vətəndaşların sənədləri qəbul edilmir. Müsabiqədə yalnız hərbi xidmətə tam yararlı (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla), iqtisadiyyat, hüquq, idarəetmə və beynəlxalq münasibətlər ixtisas sahələrindən birinə malik olan və Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilən Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

Müsabiqəni müvəffəqiyyətlə keçmiş namizədlərə yalnız aşağıda göstərilən 55 sayda vakant yer üzrə iş təklif ediləcəkdir.

1. Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi – 17 yer

2. Naxçıvan Şəhər Vergilər İdarəsi – 7 yer

3. Şərur Rayon Vergilər Şöbəsi – 3 yer

4. Babək Rayon Vergilər Şöbəsi – 9 yer

5. Ordubad Rayon Vergilər Şöbəsi – 3 yer

6. Culfa Rayon Vergilər Şöbəsi – 2 yer

7. Kəngərli Rayon Vergilər Şöbəsi – 6 yer

8. Şahbuz Rayon Vergilər Şöbəsi – 6 yer

9. Sədərək Rayon Vergilər Şöbəsi – 2 yer

Qeyd: ***Müsabiqəni müvəffəqiyyətlə keçmiş, hər hansı sahibkarlıq fəaliyyəti ilə məşğul olan namizədlər fəaliyyətləri ləğv olunmadan işlə təmin olunmurlar.***

Namizəd ona təklif olunan vəzifədən imtina edərsə, Vergilər Nazirliyinin kadr ehtiyatından çıxarılacaq.

Boş yerlərin sayı müsabiqənin sonuna qədər dəyişə bilər.

İşaxtaran vətəndaşların nəzərinə!

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti işaxtaran vətəndaşları Naxçıvan Regional Peşə Tədris Mərkəzində "qazanxana maşinisti" peşəsi üzrə kurs keçməyə dəvət edir.

Tədris müddəti 1 aydır.

Peşə hazırlığı kursunda iştirak etmək istəyənlər 2013-cü il oktyabrın 5-dək tələb olunan aşağıdakı sənədləri yaşadıqları ərazi üzrə məşğulluq mərkəzlərinə təqdim edə bilərlər:

1. Yaşayış yerindən arayış

2. Şəxsiyyət vəsiqəsinin surəti

3. Tibbi yoxlama haqqında arayış

Əlaqə telefonu: 545-32-33

İtmişdir

Çağrı Çökalpa məxsus sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

***Nömrəyə məsul:* Elnur Kəlbizadə**

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 3940. Sifariş № 894